# *İgid döyüşçü*

***Şuşanın azad olunmasında misilsiz qəhrəmanlıqlar göstərmiş "Kölgə" ləqəbli döyüşçü, Xüsusi Təyinatlı Qüvvələrin kapitanı Samir Mikayıllının unudulmaz xatirəsinə***



***Könüllü***
***döyüşə getdin.***
***Neçə***
***düşmən gəbərtdin.***
***Ölümə ölümlə***
***qalib gəldin.***
***Bürünüb***
***üçrəngli bayrağımıza,***
***Pənah gətirdin***
***Doğma torpağımıza...***
***Sıxdın***
***əlini şəhadətin,***
***sinə gərdi***
***ağrılara cəsarətin.***

***Ucaldın***
***ucadan-uca***
***Şəhidlik zirvəsinə,***
***Səs verdin***
***Əbədiyyətin səsinə...***
***Həyatı***
***tərk etdin***
***gənc yaşında,***

***Ancaq adın***
***həmişəlik qalacaq***
***ürəklərin başında***
***Adın çəkiləndə***
***Kəsilərdi***
***düşmənin nəfəsi,***
***Sarsıdardı nakəsi.***
***Qıydın cavan canına,***
***Bələdin***
***Vətən torpağını***
***al qanına.***
***Mənim şəhid qardaşım!***
***Xatirini***
***əziz tutacağıq.***
***Nə qədər ki,***
***var ömrüm, yaşım.***
***Təki sən***
***rahat uyu, yat.***
***"Kölgə" kimi***
***yenə də***
***Düşmənin yuxusuna***
***haram qat...***

***Adil MİSİRLİ***

ədalət.- 2021.- 1 iyul.- S.6.